# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİ HAQQINDA

**A.BAYRAMOVA**
*Bakı Dövlət Universiteti*

XX əsrin 70-ci illərindən başlayan H.Əliyev və dil məsələləri mərhələsi böyük liderin fəaliyyətə başladığı dövrlərdən öncə mütənasib templə, daha sonra intensivləşərək zirvə tempinə qədəm qoydu. Sovet hakimiyyətinin ilk illərində ruslaşdırma, antitürk siyasəti necə böyük vüsət almışdısa, H.Əliyevin dövlət başına keçməsinə qədər artıq bu tendensiyanın acı nəticələri özünü göstərmişdi. Bu dövrə qədər artıq azərbaycanlıların milli dilinin bitməyə doğru getdiyi dövrü acınacaqlı bir təsvir yaratmışdı. Lakin tarix dəfələrlə göstərmişdir ki, hər hansı bir millətin süquta uğradığı məqamda onun xilaskarı, onun müdafiəçisi meydana gəlir. H.Əliyevin ölkəyə o zaman onun karyerası üçün bəlkə də təhlükəli sayılan fəaliyyəti, dilimizin yeni doğulması kimi qiymətləndirilə bilər.

Heydər Əliyev, ilk növbədə, Azərbaycan xalqının milli özünüdərk hissinin güclənməsinə diqqət yetirmişdir. Ümummilli lider sovet Azərbaycanına rəhbərlik etdiyi 14 il ərzində bu sahədə olduqca nəzərəçarpacaq nailiyyətlərə gətirib çıxaran bir çox mühüm addımlar atmağa müvəffəq oldu. Məhz H.Əliyev ilk dəfə KPMK-nın iclaslarında, plenumlarda, qurultaylarda və respublikada keçirilən digər rəsmi tədbirlərdə təmiz Azərbaycan dilində çıxış etmişdi. Heydər Əliyevə qədər Azərbaycan KPMK-nın katiblərindən heç biri belə addım atmağa cəsarət etməmişdi. Bu Kremlin Azərbaycan xalqına öz dilini unutdurmaq siyasətinə ilk ciddi və qəti etiraz idi.

H.Əliyevin rəsmi tədbirlərdə Azərbaycan dilində çıxış etməsi ana dilinə ümumrespublika bəlkə də ölkə miqyasında münasibətin dəyişməsinə səbəb olurdu. Dövlət başçısının Sovet İttifaqı daxilində üstüörtülü apardığı ana dili siyasəti davamlı xarakter daşıyırdı. 1978-ci ildə Azərbaycan KPMK-nın birinci katibi respublikanın yeni hazırlanan konstitusiyasına Azərbaycan dilini dövlət dili kimi təsbit edən maddənin daxil edilməsinə nail oldu. Bütün bunlar təbii ki, xalqın tarixi köklərinə daha dərindən bağlılığını təmin edən milli şüurun qorunmasına istiqamətlənmiş böyük, məqsədli bir siyasətin təzahürü idi. H.Əliyev əslində, bu addımları ilə bütün digər müttəfiq respublikaları «kiçik qardaş» adlandıran Moskvanın siyasətinə zidd hərəkət edirdi. Lakin heç bir qüvvə onu dayandırmağa qadir deyildi. Təkrarsız istedada və dərin məntiqə malik bu insan hər bir qərarını kifayət qədər ciddi arqumentlərlə əsaslandırmağı bacarırdı və Kremldəki əleyhdarları onun atdığı addımlara kəskin etiraz etmək üçün tutarlı bəhanələr tapa bilmirdilər.

Məhz bu illər artıq ədəbiyyatımızda da dirçəliş dövrləri idi. Dili-

mizə dövlət səviyyəsində göstərilən qayğıdan, diqqətdən ruhlanan gənc şairlər ordusu yaranmışdı. Ana dilinə diqqətin artırılması yalnız partiyanı təbliğ etməklə deyil, yüksək insani duyğuları, sevgi-məhəbbəti, doğma vətəni, - onun uğurlarını tərənnüm etmək imkanı həssas və incə təbiətli azərbaycanlıların şairlik istedadının meydana çıxmasına təkan olmuşdur.

Ədəbiyyatdakı bu canlanmanı məhz H.Əliyevin adı çəkilməyən dil siyasəti ilə bağlamaq olar. M.Müşfiq, Əhməd Cavad və s. kimi dahi şairlərin əsrin əvvəllərində faciəvi aqibətindən bir kompleks yaşamış istedadlı xalq dil məsələsinə dövlət başçısı tərəfindən əvvəldə baş verənlərə əks münasibətini gördükdə çox ruhlanmışdı. Bütün bunlara baxmayaraq, etiraf etmək lazımdır ki, haradasa yenə azərbaycanlılığı tam təbliğ etmə olmur, bizə düşmən kəsilən millətlərin nümayəndələrinin buna xüsusi don geyindirməsi də mümkün idi. Lakin fenomen siyasətçi hər bir vəziyyətdən çıxmağın yollarını bilirdi. Onu da bilirdi ki, dövləti yaratmağın ilkin yolu dili bərpa etməkdən, çoxsaylı millətlər içində isə milliliyini qoruyub saxlamağın da yolu yenə dili – doğma ana dilini qorumaqdan keçir. Dövlət və dil dedikdə ölkə üçün ən başlıca, ən önəmli faktorlar ifadə olunur. N.Cəfərovun qeyd etdiyi kimi «Hər bir xalqın böyük əsəri onun dövlətidir. Dövləti olmayan xalqın cəmiyyəti də, mədənyyəti də, mənəviyyatı da çox böyük təhlükələr qarşısında qalır. Hər bir xalqın ən böyük şəxsiyyəti odur ki, o xalq üçün dövlət yaratsın. Bu mənada Heydər Əliyev Azərbaycan xalqının ən böyük əsərini yaratmış bir tarixi şəxsiyyətidir. Bir xalqa dövlət yaratmaq, eyni zamanda dünyada harmoniya yaratmaq deməkdir. Dünyada hansı xalqın dövləti yoxdursa, ora dünya üçün təhlükəlidir.

Bu mənada Heydər Əliyev dünyanın ən böyük siyasi xadimlərindən biridir. Görkəmli alimin fikirlərinə şərik olaraq əlavə edirik ki, dünyada hər bir dövlətin də varlığı məhz onun dilinin varlığı ilə paralel əhəmiyyət daşıyır.

Heydər Əliyev kimi siyasətçinin güclü önəm verdiyi məsələ heç vaxt az əhəmiyyətli ola bilməzdi. H.Əliyev dövlətin ilk göstəricisi kimi dilimizi önə gətirirdisə, dildən istifadəni öz xalqına? millətdaşlarına aşılayır, dövlətinin atributuna və doğma dilinə sayğı göstərməyin əsas vətəndaşlıq borcunun bir hissəsi kimi təqdim edirdi.

Sözsüz bu «vəzifənin» ilk icraçısı da H.Əliyev özüdür. Dillə bağlı məsələlərə diqqət etdikcə H.Əliyevin dil siyasətini, özünün nitq mədəniyyətini, dil quruculuğunu təhlil etdikcə siyasi xadimin natiq kimi nəhəng təcrübəsi, qrammatik bilgiləri heyran doğurur. Böyük öndərin dilində bir dənə də olsun düzgün qurulmayan cümlə, yerinə düşməyən ifadə tapmaq mümkün deyildir. Hətta müxalifləri belə onun bu sahədə bacarığı qarşısında susmağa məcburdurlar.

H.Əliyevin dil quruculuğu ilk növbədə qeyd etdiyimiz qrammatik savad göstəricisindən irəli gəlirsə, bu faktla yanaşı ardıcıl mütaliə, zəngin informasiya, yüksək intellekt bu xüsusiyyəti şərtləndirən əsas səbəblərdir. Şübhəsiz bu böyük şəxsiyyətin də nitqində emosionallıq və digər keyfiyyətlər öz ifadəsini tapır. Maraqlısı isə budur ki, hətta müəyyən dövlət məsələlərində emosional vəziyyətlərə düşsə belə heç bir neqativ ifadə işlətmədən öz münasibətini bildirir. Məsələyə qarşı tələbkarlıq nümayiş etdirirdi.

Dünya azərbaycanlılarının I qurultayında böyük lider millətdaş-

larımızı birləşdirən amilləri sadə, müdrik bir formada şərh edir. «Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan soydaşlarımız üçün əsas ideya olubdur. Biz həmişə bir ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini müdafiə etmək, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın təmin olunması deməkdir».

Dünya azərbaycanlılarının I qurultayı ölkəmiz, xalqımız üçün çox önəmli bir hadisə idi. Bu qurultayda azərbaycançılıq ideologiyasının təməl prinsipləri açıqlandı və xüsusi vurğulandı ki, azərbaycançılıq, ilk növbədə, doğma yurdun tarixi ənənələrinə arxalanır və ondan güc, qüvvət alır. Ölkə əhəmiyyətli bu tədbirdə böyük öndərin çıxışı isə həmvətənlərimizə xüsusilə böyük ruh yüksəkliyi bəxş etmişdir. Təqdim olunan kiçik mətndə H.Əliyevin nitq mədəniyyətinə xas olan ən zəngin çalarları müşahidə etmək mümkündür. Bu nümunədə istər sadə, istər mürəkkəb quruluşlu cümlə tiplərinə rast gəlirik. Bu cümlələrin vaxtaşırı işlənməsi, sadə cümlələrin mürəkkəb cümlələrlə növbələnməsi mətndaxili qanunların tələblərinə cavab verir, mətnə dolğunluluq, asan anlaşılma kimi keyfiyyətlər bəxş edir, monoton nitq ağırlığı yaratmır. H.Əliyevin nitqində hər bir mövzuya girişin xüsusi üsulu vardır. Ümumiyyətlə götürdükdə Heydər Əliyevin dövlət başçısı kimi etdiyi çıxışlar bir neçə hissəyə bölünə bilər. Bu çıxışlar mahiyyətinə görə müxtəlifdir. Xarici ölkələrdə, beynəlxalq təşkilatlarda təqdim olunan çıxışlar, ölkə daxilində rəsmi və qeyri-rəsmi, bölgələrdə əhali qarşısında səslənən çıxışlar. Qeyd etmək lazımdır ki, H.Əliyev siyasətçi natiq kimi bütün pozisiyalarda öz nitq üslubunu saxlayır. «Onun nitqlərini adi dövlət başçısının məruzəsi kimi qəbul etmək düzgün olmazdı. Belə ki, bu siyasətçinin nitqi söhbət gedən mövzunun tam bir tarixini əhatə edir. Onun daha çox məntiqə və faktlara əsaslanan nitqi zəngin informasiya mənbəyidir. Bu çıxışları dinləyən hər bir şəxs bilmədiyi bir çox məsələlərdən xəbərdar olur, məlumatını artırmaq imkanı qazanır. Məhz H.Əliyevin simasında liderin böyük təcrübəsinin nə dərəcədə önəm daşıdığı özünü bürüzə verir. Böyük öndərin təkrarolunmaz yaddaşı sayəsində dinləyicisinə bəhs etdiyi mövzunun ən son və tarixi faktlarını çatdırmaq xüsusiyyəti onun nitqlərinə olduqca böyük əhəmiyyət verir».

H.Əliyevin dilinin leksik tərkibi də olduqca maraqlıdır. Rəhbərin əhatəli leksikonu heyrət doğurur. Sinonim sözlərin yeri gəldikcə sıralanması istifadəçinin zəngin dil ehtiyatından xəbər verir: «Mən sizə arxalanmışam və həmişə də sizə arxalanacağam. Çünki mənim xalqımın firavanlığından, xoşbəxtliyindən böyük heç bir arzum yoxdur»; «Hamını Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə fəaliyyətə, birliyə, əməkdaşlığa dəvət edirəm. Sinonim leksemlərlə yanaşı, H.Əliyevin nitqində sinonim cümlələrlə də qarşılaşırıq ki, bu nitqdə fikrin möhkəmlənməsinə xidmət edən amillərdəndir: «Bizim ən böyük xoşbəxtliyimiz odur ki, 11 il bundan öncə azadlığa çıxdıq, öz dövlət müstəqilliyimizi bərpa etdik».

H.Əliyevin nitq üslubunda müxtəlif digər keyfiyyətlər müşahidə olunur ki, bu keyfiyyətlər onun nitqinə daha artıq ifadəlilik, məzmun-

luluq dəqiqlik bəxş edir.

Liderin dilinə xas özəlliklərdən, onun nitqinin üslubiliyini gücləndirən cəhətlərdən biri eyni sözün yerinə uyğun təkrarlanmasıdır ki, bu nitq ifadəliliyini xüsusi olaraq artırır:

«Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər – ancaq Azərbaycanın konstitusiyası çərçivəsində, Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir; Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır».

H.Əliyevin nitqində siyasi terminlərin də uğurlu kombinasiyası siyasətçi nitqinin xarakterik tərəflərini canlandırır. «Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yayılmaqdan, onlardan bəhrələnməkdən ibarətdir. H.Əliyevin nitqində məcaz söz qrupları yeri gəldikcə xüsusi obrazlılıq yaradır: «Hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır. Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır». Bütün bu kimi dil faktlarının böyük öndərin dilinə bəxş etdiyi ən öncəki keyfiyyət, millilikdir. H.Əliyevin dilində mövcud olan belə qrammatik xüsusiyyətlər onun ana dilimizin çox gözəl bilicisi və ardıcıl istifadəçisi olduğunu bir daha təsdiq edir.

## ƏDƏBİYYAT


1. «Heydər Əliyev dühasının bəhrəsi» Nizami Cəfərov. (Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə) Elmi-nəzəri və praktiki jurnal, 2 (10) 2005 «Oskar» nəşriyyatı, 2005, səh. 102-105.
2. Taleyi tarixə dönən şəxsiyyət. Alış Qasımov. Təhsil Bakı-2004, 238 səh.
3. Heydər Əliyev və siyasət dili A.Bayramova Ümid çırağı–2005, №6. səh.35-42.


## ГЕЙДАР АЛИЕВ ОБ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ


**А.БАЙРАМОВА**


## РЕЗЮМЕ


В истории есть личности, многие качества которых сохраняют свое воздействие на многие года, требуя особого изучения. Одним из таких личностей был выдающийся сын азербайджанского народа Гейдар Алиев. В ряду многих его выдающихся качеств можно особо отметить присущие этому видному политику современности ораторское искусство и дипломатичность.

Ораторское мастерство Г.Алиева может быть образцом ораторского искусства не только для Азербайджана, но и для всего мира.

Речи, выступления нашего незабвенного лидера нашего народа – это живое воплощение истории. В ходе своих поездок по стране, во время встречь с населением он неизменно общался с простыми тружениками, обращался с ними в привычной для них манере, интересовался их проблемами, считая это составной частью своей политики.

Речь, стиль, ораторское искусство Г.Алиева еще долго будут привлекать внима-

ние многих и многих поколений политиков, становится объектом исследования и анализа многих фундаментальных научных трудов.

## LANGUAGE AND LEADER

**A.BAYRAMOVA**

**SUMMARY**

In the of history, there are persons, whose many qualities кeep its impact throughout many years, requiring special study. One of such persons was an outstanding son of Azerbaijani people Heydar Aliyev. His oratorical art in diplomacy must be especailly noted among his numerous valuable qualities.

Oratorical mastery of Heydar Aliyev might be a brilliant sample of oratory not only for Azerbaijan, but also for the whole world.

Speeches, enunciation of the memorable leader of our people is a lively embodiment of history. During his trips through the country, in the course of meetings with the people he always used to communicate with simple worкers, addressed them in a maner habitual for them, cared for their problems considering it a part of his policy.

His speech, style, oratorical art will still long draw attention of many and many generations of politicians becoming the object of researches And analysis of many fundamental proceedings.